



# Bu gün Tokioda XXXII Yay Olimpiya Oyunları başa çatır




***"Tokio-2020"-nin 16-cı günündə verilən hesabata görə medal siyahısına Çin komandası liderlik edir. İkinci, üçüncü pillərdə müvafiq olaraq ABŞ və Yaponiya atletləri qərarlaşıblar.***



Dünən 65 kiloqram çəki dərəcəsində mübarizə aparan sərbəst güləşçimiz Hacı Əliyev və 61 kiloqramdan çox çəkidə yarışan karateçimiz İrina Zaretska gümüş, 50 kiloqram çəkidə iştirak edən güləşçimiz Mariya Stadnik isə bürünc medal qazandılar. Bundan başqa, millimizin üç idmançısı – qadın cüdoçu İrina Kindzerska, boksçu Alfonso Dominges və yunan-Roma güləşçisi Rafiq Hüseynov komandamızın aktivinə bürünc medallar yazdırıblar. Həmçinin sərbəst güləşçimiz Hacı Əliyev 65 kiloqram çəki dərəcəsində yarışın finalına yüksəlməklə ən azı gümüş medalı təmin edib.

Avqustun 8-dək davam edəcək XXXII Yay Olimpiya Oyunlarında 204 Milli Olimpiya Komitəsindən 11 min atlet idmanın 33 növü üzrə 339 dəst medal uğrunda mübarizə aparır. Azərbaycan milli komandası isə "Tokio-2020"də 44 idmançı ilə təmsil olunur. Ölkəmiz yeddinci dəfədir Yay Olimpiya Oyunlarında iştirak edir. Olimpiya komandamız, həmçinin, 6 Qış Olimpiya Oyunlarında gücünü sınayıb. Milli komandamızın Olimpiya Oyunlarında debütü "Atlanta-1996" Qış Olimpiya Oyunlarına təsadüf edib.

Azərbaycan komandası medalların sayına görə ən böyük uğurunu "Rio-2016"da qazanıb. Həmin Olimpiadaya 56 idmançı ilə qatılan komandamız 1-i qızıl, 7-si gümüş və 10-u bürünc olmaqla ümumilikdə 18 medala sahib olub.

Dünən Azərbaycan karateçisi İrina Zaretska ikinci qələbəsini qazanıb. 61 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan idmançımız A qrupu çərçivəsində italiyalı Silvia Semeraro ilə qarşılaşıb. Karateçimiz rəqibinə 3:2 hesabı ilə qalib gəlib. O, qrup görüşləri çərçivəsində daha sonra qazaxıstanlı Sofiya Berultseva ilə qarşılaşıb və rəqibinə 4:5 hesabı ilə məğlub olub.

Təmsilçimiz ilk döyüşünü Yaponiya idmançısı Ayumi Uekusaya qarşı keçirib və 4:1 hesablı qələbə qazanıb. Növbəti görüşündə isə italiyalı Silvia Semerarodan üstün olub - 3:2.

Karateçimiz qrup görüşləri çərçivəsində daha sonra Məltəm Hocaoğlu (Türkiyə) ilə qarşılaşacaq. Qrupda ilk iki yerin sahibi yarımfinala vəsiqə qazanmaqla yanaşı, bürünc medalı da təmin edəcək.

Bədii gimnastika üzrə qrup hərəkətlərindən ibarət komandamız isə Tokio Olimpiadasının finalına yüksələ bilməyib. Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Nərminə Səmədova və Darya Sorokinadan ibarət komandamızın ikinci proqramı – 3 halqa və 2 cüt gürzlə çıxışı 37,650 xalla qiymətləndirilib. Gimnastlarımız 5 topla çıxışa görə hakimlərdən 36,700 xal alıblar. İki çıxışın nəticəsində 74,350 xal toplayan komandamız çoxnövçülükdə 10-cu olub.

İlk səkkiz pillədə qərarlaşan Bolqarıstan, Rusiya Olimpiya Komitəsinin kollektivi, İtaliya, İsrail, Çin, Ukrayna, Yaponiya və Belarus komandaları finala vəsiqə qazanıblar. Həlledici mərhələ avqustun 8-də təşkil olunacaq.

Avqustun 6-da Azərbaycan karateçisi Rafael Ağayev (75 kq) "Tokio-2020" Yay Olimpiya Oyunlarında gümüş medal qazanıb. Yarışların yarımfinalında təmsilçimiz macarıstanlı Qabor Karoli Harspataki ilə qarşılaşıb. Rəqibini 7:0 hesabı ilə məğlub edən Rafael Ağayev Olimpiya çempionu adı uğrunda həlledici görüşdə iştirak hüququ qazanıb.

O, Azərbaycan xalqını təbrik edərək bildirib: "Bu gün yer tutmaya da bilərdim. Birinci və ya üçüncü də ola bilərdim. Bəziləri Tokioya yarışda iştirak üçün gəlir. Mən qızıl medal üçün gəlmişdim. Təəssüflər olsun ki, gümüş mükafat qazandım. Bu yolda mənəvi və fiziki cəhətdən kimlər mənə kömək edib və yanımda olubsa, onlara "çox sağ ol" deyirəm. Ölkəmizin Prezidentinə təşəkkür edirəm. Hər zaman idmançılara qayğı göstərib. Federasiyamızın prezidenti Yaşar Bəşirova, şəxsi müəllimim Füzuli Musayevə, yığmanın baş məşqçisi Qurban Tağıyevə və ilk müəllimim Rafael Məmmədova da minnətdaram".

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***




